*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 yanvar 2020-ci il № 5 (2423) Qiyməti 30 qəpik


# Qanlı 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti

## Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*



Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin otuzuncu ildönümü ilə əlaqədar Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin Sərəncamda deyilir: "1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

* * *

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Gürcüstana rəsmi səfəri başlayıb



*Yanvarın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstan Müdafiə naziri cənab İrakli Qaribaşvilinin dəvəti ilə Tbilisi şəhərinə rəsmi səfərə yola düşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində Müdafiə naziri qonşu ölkənin hərbi və siyasi rəhbərliyi ilə keçiriləcək görüşlərdə ikitərəfli əməkdaşlığın perspektiv istiqamətləri, beynəlxalq və regional təhlükəsizlik məsələlərini müzakirə edəcək.

* * *

Gürcüstana səfərə gələn Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Tbilisi şəhərinin mərkəzində Heydər Əliyev adına Parkı ziyarət edib.

Nümayəndə heyəti xalqımızın Ümummilli Liderinin abidəsi önünə əklil qoyaraq xatirəsini dərin ehtiramla yad edib.

* * *

Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 21-də bu ölkənin Müdafiə naziri cənab İrakli Qaribaşvili ilə görüşüb.

Gürcüstan Müdafiə Nazirliyində Azərbaycan nümayəndə heyətinin rəsmi qarşılanma mərasimi olub.

Protokola uyğun olaraq Müdafiə nazirləri Fəxri Qarovulun önündən keçdikdən və dövlət himnləri səsləndirildikdən sonra görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif sahələri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyini qeyd edərək ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyini xüsusi vurğulayıblar.



Görüşdə Azərbaycan və Gürcüstanın müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq Planı imzalanıb. Sənəddə ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi, qabaqcıl təcrübə mübadiləsi və digər vacib məsələlər nəzərdə tutulur.

Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün Müdafiə nazirlərinin mətbuat konfransı keçirilib.

## Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb

Yanvarın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyətinə, keçirilən monitorinqlərin nəticələrinə və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**20 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Acarlı, Mərzili, Füzuli rayonunun Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**21 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Kəngərli, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər. Hərbi qulluqçular Vətənin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.*



1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin dəhşətli gecədə həlak olan Vətənimizin oğul və qızları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi və firavan həyatı üçün yol açdılar. Vətəninin azadlığı və suverenliyi uğrunda canından keçənlər ümumxalq sevgisiylə dəfn edildilər. Bu məkan Şəhidlər xiyabanı adlandırıldı. Hər il yanvarın 20-də minlərlə insan şəhidlərimizin xatirəsini ehtiramla yad edir, onların məzarları önünə əklil və gül dəstələri qoyur.

Bu gün Şəhidlər xiyabanında insan axınını seyr etdikcə ümummilli lider Heydər Əliyevin sözləri bir daha xatırlanır: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq, eyni zamanda, onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Faciənin 30-cu ildönümü də izdihamlı ziyarətlərlə müşayiət edildi, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzdü, onları qürurla andı, qatilləri lənətlədi, bu faciəni törədənlərə dərin nifrətini bildirdi.

**"Azərbaycan Ordusu"**

# “Şəhidlər unudulmur” layihəsi çərçivəsində növbəti tədbirlər keçirilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin reallaşdırdığı "Şəhidlər unudulmur" layihəsi çərçivəsində növbəti tədbir Bakıda yerləşən Füzuli rayon 48 nömrəli məktəbdə təşkil olunub. Tədbirdə şəhid ailələrinin üzvləri, qazilər, 2016-cı ilin Aprel döyüşlərinin iştirakçıları, Müdafiə Nazirliyinin, Füzuli rayon İcra Hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri, müəllim və şagirdlər iştirak ediblər.*



AZƏRTAC xəbər ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib. Azərbaycan Ordusunun zabiti mayor Anar Rzayev bildirib ki, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların vətənpərvərliklərinin və qəhrəmanlıqlarının təbliği, məktəblilərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə "Şəhidlər unudulmur" layihəsi icra olunur. Layihə çərçivəsində orta ümumtəhsil məktəblərinin ən qabaqcıl siniflərinə şəhidlərimizin adları verilir.

"Şəhidlər unudulmur" layihəsi çərçivəsində 48 nömrəli məktəbin də beş sinfinə şəhidlərimizin adları verilib. Füzuli rayon İcra Hakimiyyəti başçısının müavini Gülbahar Eyvazova, təhsil şöbəsinin müdiri Ramella Məmmədova, məktəbin direktoru Şərafət Hacıyeva çıxış edərək, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində orta təhsil müəssisələrində aparılan işlərdən danışıblar. Siniflərə şəhidlərimizin adlarının verilməsi ilə şagirdlərin üzərinə böyük məsuliyyət düşdüyü, onların göstərilən etimadı doğrultmaq üçün təhsildə müvəffəqiyyət qazanmalarının və vətənpərvər olmalarının vacibliyi qeyd edilib.

Şagirdlər Aprel döyüşlərində şücaətlər göstərmiş Tahir Misirxanov və Üzeyir Nəcəfovun çıxışlarını böyük maraqla dinləyiblər.

Şəhid atası Ələkbər Hüseynov çıxışında övladının şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu bildirib, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərə görə minnətdarlığını ifadə edib.

Sonra şəhid valideynləri sinif rəhbərlərinə Aprel şəhidləri Elnur Əliyevin, Orxan Həmidovun, Əlvan Hüseynovun, Səyyar Quliyevin və Ayaz Hüseynovun şəkillərini təqdim ediblər. Şəhid valideynləri şəhidlərin adları verilmiş siniflərin şagirdləri ilə söhbət edərək, övladlarının məktəb illəri haqqında xatirələrini danışıblar.

Tədbirin ikinci hissəsi 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunub. Çıxış edənlər Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizədən, 20 Yanvar faciəsindən, şəhidlərin qəhrəmanlığından danışıb, onların böyüməkdə olan gənc nəslə vətənpərvərlik örnəyi olduğunu bildiriblər.

Məktəbin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub. Sonda şagirdlər "Əsgərə məktub" layihəsi çərçivəsində Azərbaycan əsgərinə 170 ədəd kitab hədiyyə edib.

* * *

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin reallaşdırdığı "Şəhidlər unudulmur" layihəsi çərçivəsində növbəti tədbirlər Horadiz şəhərində təşkil olunub.

Şəhid ailələrinin üzvləri, qazilər, 2016-cı ilin Aprel döyüşlərinin iştirakçıları, Müdafiə Nazirliyinin, Füzuli rayon İcra Hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri, “N” hərbi hissənin əsgərləri, müəllim və şagirdlər əvvəlcə "Qəhrəmanlar Parkı"nda Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə ucaldılmış abidə önünə tər çiçəklər qoyaraq xatirələrini ehtiramla yad ediblər.

Füzuli Dövlət Dram Teatrında davam edən tədbirdə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Polkovnik Elşad Əbilov çıxış edərək, 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan hərbçilərinin qəhrəmanlığından bəhs edib, layihə haqqında məlumat verib. Bildirib ki, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların vətənpərvərliklərinin və qəhrəmanlıqlarının təbliği, məktəblilərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə icra olunan "Şəhidlər unudulmur" layihəsi çərçivəsində orta ümumtəhsil məktəblərinin ən qabaqcıl siniflərinə şəhidlərimizin adları verilir. Layihə çərçivəsində Horadiz şəhər 2 və 3 nömrəli, həmçinin Cocuq Mərcanlı kənd tam orta məktəblərinin üç sinfinə şəhidlərimizin adları verilib.

Füzuli rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Qabil Əliyev 1990-cı il yanvarın 20-də törədilmiş faciədən, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən həmvətənlərimizin mübarizliyindən danışıb. "Şəhidlər unudulmur" layihəsinin əhəmiyyətini yüksək qiymətləndirərək, şəhidlərin adları verilmiş siniflərin şagirdlərinə daha yaxşı oxumağı, xalqımız üçün yararlı vətəndaş kimi böyüməyi arzu edib.

Sonra Füzuli Dövlət Dram Teatrı 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar hazırlanmış, faciə qurbanlarının həyat hekayəsini və qəhrəmanlığını əks etdirən "Tarix yazan silinməz" adlı poetik xalq tamaşasını təqdim edib.

Tədbirdə Aprel qaziləri sinif rəhbərlərinə şəhid Seymur Əliyevin, Vidadi Mahmudovun və Arif Fərhadovun şəkillərini təqdim ediblər. Şəhid anası Sara Hümbətova və şəhid qardaşı Ramiz Mahmudov qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən bu işlərə görə minnətdarlığını ifadə ediblər.

Şəhid ailələrinin üzvləri, qazilər, 2016-cı ilin Aprel döyüşlərinin iştirakçıları, Müdafiə Nazirliyinin, Füzuli rayon İcra Hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri sonra Horadiz şəhər 2, 3 və Cocuq Mərcanlı kənd tam orta məktəblərinə gediblər. Horadiz şəhər 2 nömrəli məktəbin 9-cu sinfində şəhid Seymur Əliyevin, 3 nömrəli məktəbin 6-cı sinfində Vidadi Mahmudovun, Cocuq Mərcanlı kənd tam orta məktəbinin 10-cu sinfində Arif Fərhadovun guşələri yaradılıb.

# “Zəfərə aparan yol”



*Yanvarın 16-da Biləsuvar rayonunda 2016-cı il Aprel şəhidlərinin xatirəsinə ucaldılmış "Zəfərə aparan yol" abidə kompleksinin açılış mərasimi keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Biləsuvar rayon Mərkəzi Parkında keçirilən tədbirdə “N” hərbi hissəsinin şəxsi heyəti, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və əməkdaşları, ağsaqqallar, gənclər, Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.*

Mərasim Heydər Əliyev parkında Ulu Öndərin əziz xatirəsinin yad edilməsi ilə başlandıqdan sonra hərbi qulluqçular və rayon ictimaiyyətinin nümayəndələri hərbi orkestrin sədaları altında Aprel şəhidlərinin xatirəsinə ucaldılmış "Zəfərə aparan yol" abidə kompleksinə doğru hərəkət ediblər.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edənlər Azərbaycan Ordusunun qüdrətindən söz açıblar. Vurğulanıb ki, Azərbaycan Ordusu bu gün dünyanın yüksək döyüş keyfiyyətlərinə malik olan ən güclü ordulardan biridir. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini və ədalətin bərpa olunacağını göstərdi.

Tədbirdə çıxış edən Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev vurğulayıb ki, Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi. Bu qələbə igid əsgərlərimizin işğal olunan torpaqlarımızın azad edilməsinə tam hazır olduğunu bir daha sübut etdi. Xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış bu döyüşlərdə şəhidlik zirvəsinə ucalmış igid əsgərlərimiz də var. Onların arasında biləsuvarlı qəhrəman əsgərlərimiz Fərahim Nadir oğlu Novruzov, Hüseyn Zeynal oğlu Dəmirli, Murad Vaqif oğlu Məmmədov, Biləsuvar rayonu ərazisində məskunlaşmış, əslən Cəbrayıl rayonundan olan çavuş Ruhim Əşrəf oğlu Qəhrəmanov və Fariz Şamil oğlu Cavadov da igidlik göstərərək şəhid olublar. Biz Aprel döyüşlərində düşmən həmlələrinin dəf olunmasında igidlik göstərərək sağlamlıqlarını qismən də olsa itirmiş biləsuvarlı döyüşçülər Aqil Allahverdi oğlu İmanov, Babək Bəxtiyar oğlu Əliyev, Nicat Aydın oğlu Ağazadə, Səfər Rafiq oğlu Şiriyev və Orxan Əliyulla oğlu Qarayevlə qürur duyuruq. Xalqımız şəhidləri ilə fəxr edir, onların xatirəsini həmişə uca tutur.

İcra hakimiyyətinin başçısı qeyd edib ki, "Zəfərə aparan yol" abidəsi hər birimiz üçün əzizdir. “Rəmzi məna daşıyan bu abidə bizi qəhrəmanlığa, hünərə səsləyir. Gənclərimizdə yüksək vətənpərvərlik hissləri oyadır. Rayonumuzun gəncləri bu abidənin mühafizəsində, onun önündə keçirilən müxtəlif tədbirlərdə həmişə yaxından və fəal iştirak edəcəklər.”



Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət isə bir daha göstərir ki, torpaqlarımızın işğaldan azad olunacağı günə çox qalmayıb. O günü bütün xalqımız səbirsizliklə gözləyir.

Tədbirdə çıxış edənlər Aprel döyüşlərinin tarixi əhəmiyyətini vurğulayıblar.

Abidə kompleksinin hazırlanmasında iştirak edən bir qrup şəxs Biləsuvar rayon İcra Hakimiyyətinin və “N” hərbi hissəsinin fəxri fərmanları və hədiyyələrlə təltif olunublar.

Sonda məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş olunub.

# 20 Yanvar xalqımızın qəhrəmanlıq tarixidir




*Müdafiə nazirinin tapşırığına əsasən, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar tədbirlər təşkil olunub. Tədbirlərdə bu günün tarixi əhəmiyyətindən danışılıb, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin baş vermiş hadisələr barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirdiyi siyasətin uğurları barədə ətraflı məlumat verilib.*

*Anım tədbirlərində ümummilli lideri Heydər Əliyevin, 20 Yanvar şəhidlərinin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Müxtəlif bölgələrdəki Şəhidlər xiyabanları ziyarət edilib, sərgilərə baxılıb, ədəbi-bədii kompozisiyalar və sənədli filmlər nümayiş olunub.*

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən faciəyə ilk siyasi qiymət ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilib. Qeyd olunub ki, bu gün hər bir azərbaycanlı 20 Yanvar tarixini müstəqillik mübarizəsində ən şərəfli günlərdən biri sayır, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edir.

Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və Nərgiz uşaq bağçasının fidanları ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Sonda hərbi vətənpərvərlik mövzusunda videoçarx nümayiş olunub.

* * *

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tariximizin şanlı səhifələri ilə bağlı kursantlarımızın maarifləndirilməsi, onların vətənpərvərlik ruhunun gücləndirilməsi, milli-mənəvi hisslərinin yüksəldilməsi məqsədilə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr edilmiş "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" adlı ədəbi-bədii kompozisiya nümayiş olundu.

Çıxış edən məktəbin zabiti polkovnik Emin Səfərov 20 Yanvar hadisələrinin ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu vurğuladı: "30 il bundan əvvəl Bakıda törədilən qırğın Azərbaycan xalqının milli azadlıq mübarizəsini boğmaq məqsədi daşısa da, bu qanlı faciə xalqımızın müstəqillik əzmini qıra bilmədi və Azərbaycanın müstəqillik qazanmasına təkan verdi. O dövrdə xalqımızın başına gətirilən bu qanlı faciəyə ilk siyasi-hüquqi qiymət verən, həmin vaxt həyatına olan təhlükələrdən çəkinməyərək, sovet hakimiyyətinin cinayətkar əməlinə etiraz edən xalqımızın ümummilli lideri Heydər Əliyev oldu".

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov tədbir iştirakçılarını salamlayaraq bildirdi ki, Azərbaycan xalqının tarixinə Qanlı Yanvar kimi daxil olan 1990-cı il 20 Yanvar faciəsindən artıq 30 il keçir. "20 Yanvar faciəsi 1988-ci ildən başlayan, sovet rəhbərliyinin himayədarlığı ilə xalqımıza qarşı törədilən faciələrin ən qanlı səhifələrindən biridir. Öz ata-baba yurdlarından qovulmuş, soyqırıma məruz qalmış xalq həmin günlərdə öz etiraz səsini mərkəzə çatdırmaq üçün küçələrə çıxmışdı".

- 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSRİ Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin "Alfa" qrupu tərəfindən yanvarın 19-da Azərbaycan Televiziyasının enerji bloku partladıldı, respublika televiziya verilişləri dayandırıldı. Gecə isə sovet qoşunları fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan dinc əhaliyə amansız divan tutdu. 20 Yanvar faciəsi zamanı 147 nəfər öldürüldü, 744 nəfər ağır xəsarət aldı. Bu gün müstəqil Azərbaycanda 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi qeyd edilir.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı leytenant Günel Dadaşova tədbir iştirakçılarına faciənin tarixi barədə məlumat verdi. O bildirdi ki, bir tərəfdən kədərli, digər tərəfdən isə qəhrəmanlıq səhifəsi olan həmin gün bütün dünya xalqımızın qəhrəmanlığının, azadlıq uğrunda mübarizliyinin şahidi oldu.

Çıxışlardan sonra tədbir iştirakçılarına 20 Yanvar faciəsini əks etdirən qısametrajlı film nümayiş etdirildi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin 20 Yanvara dair hazırladığı ədəbi-bədii kompozisiyası nümayiş etdirildi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı anım mərasimi keçirildi.

Tədbirdə çıxış edən polkovnik Müslüm Nəsirov qəhrəman oğul və qızlarımızın xalqımızın azadlığı uğrunda apardığı mübarizədən, müstəqilliyimiz naminə göstərdikləri rəşadətdən və törədilmiş qətliamın səbəblərindən danışdı. Həmin günlərdə ümummilli lider Heydər Əliyevin xalqın yanında olması, ölkəmizin Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqdakı çıxışı, sonralar Azərbaycan Prezidenti kimi bu günə xüsusi status verməsi bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" adlı ədəbi-bədii kompozisiya təqdim etdi.




Sonda Qanlı Yanvarın tarixindən bəhs edən kitab, jurnal, qəzet və tablolardan ibarət sərgiyə baxış keçirildi.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

20 Yanvar xalqımızın tarixində təkcə faciə deyil, həm də istiqlal mücadiləsinin qələbəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Sovet imperiyasının əsarətində yaşamağa məhkum olan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 30 ildir Azərbaycan xalqı bu günü, Vətənimizin azadlığı və suverenliyi uğrunda şəhid olan mərd oğul və qızlarının xatirəsini dərin hörmət və ehtiramla yad edir.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində də 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı anım tədbiri keçirildi.

Tədbiri H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov açaraq 20 Yanvar şəhidlərinin Azərbaycanın tarixinə parlaq səhifələr yazaraq, xalqın azadlığı və müstəqilliyi üçün açdığı yollardan danışdı. "Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini öz həyatından belə yüksəkdə tutan, Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən ümummilli lider Heydər Əliyev oldu. Ulu Öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi..."

20 Yanvar Cəmiyyətinin idarə heyətinin üzvü, II qrup əlil Asif İbrahimov hüzn qarışıq qürurla anılan tarixi gün haqqında xatirələrini dilə gətirərək qeyd etdi ki, 1990-cı ilin 19-20 yanvar tarixlərində Bakıda tarix boyunca əmsalına ancaq orta əsrlərdə rast gələcəyimiz bir qırğın həyata keçirildi. "Təpədən-dırnağadək silahlanmış ordu hissələri Bakını işğal edərək dinc əhaliyə qarşı tanklarla, ağır silahlarla planlı şəkildə hücum təşkil etdi. Bu hücumlar qarşısında çaş-baş qalan Bakı əhalisi tankların altında əzilərək, silahlara tuş gələrək şəhid oldular. Hər il olduğu kimi, yenə də xalqımız 20 Yanvar hadisələrinin 30-cu ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir..."

**(Ardı 5-ci səhifədə)**

# 20 Yanvar xalqımızın qəhrəmanlıq tarixidir

(Əvvəli 4-cü səhifədə)

Leytenant Günel Dadaşova Azərbaycan xalqının tarixinə 20 Yanvar faciəsi kimi daxil olmuş o günlərə bir daha nəzər salaraq bildirdi ki, Azərbaycan xalqı həmin gün sovet imperiyasına qarşı əliyalın, inamlı mübarizəyə qalxdı. "20 Yanvar faciəsi SSRİ-nin dağılma prosesində baş verən, hədəfində insanlıq adına dəyərləri yox etmək olan ən qanlı hadisələrdən biridir. Xalqın küçələrə axışması, mitinqlərdə iştirak etməsi, milli birlik və bərabərlik adına verilən bəyanatı suverenlik və müstəqillik istəyini 70 il ürəyində yaşatdığını bütün dünyaya göstərdi. O müdhiş gecədə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətənimizin igid oğul və qızları xalqımızın tarixinə parlaq səhifə yazdılar...".

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" adlı bədii kompozisiya təqdim etdi.

Sonda tədbir iştirakçıları H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Səbinə Cəbiyevanın 20 Yanvar faciəsi ilə ələqədar hazırladığı sərgiylə və Rəssamlar Akademiyasının məzunu Babək Abdullayevin çəkdiyi rəsmlərlə yaxından tanış oldular.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**






Azərbaycan xalqı Vətənimizin azadlığı və bütövlüyü uğrunda canından keçmiş bütün övladlarının xatirəsini əziz tutur və ehtiramla yad edir. 20 Yanvar faciəsi bu baxımdan Azərbaycanın ən yeni tarixinə həm Ümumxalq Hüzn Günü, həm də qəhrəmanlıq səhifəsi kimi düşüb.

Azərbaycan Hərb Tarixi Muzeyində 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr edilmiş "Azadlığa gedən yolun zirvəsi" adlı anım mərasimi keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, şəhər muzeylərinin nümayəndələri, müharibə veteranları iştirak edirdilər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan tarixinin hüzn və şərəf günü" adlı məruzə ilə çıxış etdi, 30 il öncə Bakı şəhərində və digər rayonlarımızda sovet qoşunlarının törətdiyi misli görünməmiş cəza aksiyası və onun nəticələri barədə mərasim iştirakçılarına məlumat verdi, ölkə rəhbərliyinin faciəyə verdiyi qiymətdən söhbət açdı.

Muzey rəisi qeyd etdi ki, həmin gün tariximizə Ümumxalq Hüzn Günü kimi düşsə də, Azərbaycan ən ləyaqətli övladlarını qanlı gecədə itirsə də, xalqımız əsrlər boyu arzusu ilə yaşadığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə keçməyə hazır olduğunu qətliam zamanı bütün dünyaya nümayiş etdirdi.

Muzey rəisi onu da vurğuladı ki, SSRİ rəhbərliyinin törətdiyi amansız cinayət, əslində, Azərbaycan xalqını qorxutmadı, insanların görünməmiş etiraz dalğası ilə qarşılaşdı. "Milyondan artıq paytaxt sakini şəhidləri dəfn etmək üçün küçə və meydanlara axışdı, bir daha sübut etdi ki, ən ağır cəza maşını belə xalqın iradəsi qarşısında acizdir, insanları azadlıq arzularından, müstəqillik ideyalarından, Vətənin müdafiəsindən çəkindirə bilməz."

20 Yanvar faciəsi zamanı canlarından keçmiş şəhidlərimizin azadlıq arzuları artıq 30 ildir ki, reallığa çevrilib, Azərbaycan xalqı öz müstəqilliyinə qovuşub, dünya dövlətləri arasında öz layiqli yerini tutub.

Çıxış üçün söz alan polkovnik Elşad Pənahov 20 Yanvar faciəsinin ən yeni tariximizdə önəmindən danışdı. Həmin günü həm də milli qürur günü adlandıran zabit iftixar hissilə vurğuladı ki, 20 Yanvar şəhidlərinin arzuları hədər olmadı, Azərbaycan öz müstəqilliyini bərpa etdi və bu gün dövlətimiz dünya ölkələri arasında layiqli yerini tutub. Azərbaycanın güclü, işğal edilmiş ərazilərimizi azad etməyə qadir qüdrətli ordusu var.

Polkovnik-leytenant Anar Cavadov da 20 Yanvar faciəsi zamanı şəhid olan insanların hər birinin xatirəsinin xalqımız üçün əziz olduğunu söylədi. Onun sözlərinə görə 30 il öncə baş vermiş hadisələrin tariximizdə özünəməxsus yeri var və Azərbaycan dövlətçiliyinin bərpa olunmasına böyük təsir göstərib. Ən böyük nailiyyətlərimizdən biri isə ölkəmizin təhlükəsizliyini yüksək səviyyədə təmin edən güclü Azərbaycan Silahlı Qüvvələrinin mövcudluğudur.

Müzakirələr bitdikdən sonra 20 Yanvar hadisələrinə həsr edilmiş "Azadlıqla bitən SOS" adlı sənədli film nümayiş etdirildi. Mərasim iştirakçıları "Art studiya"nın balaca vətənpərvərlərinin hazırladığı və 20 Yanvar faciəsinə ithaf etdikləri sərgiyə tamaşa etdilər, muzeylə tanış oldular.

**Əbülfət QASIMOV,**
**Azərbaycan Hərb**
**Tarixi Muzeyi**

1990-cı ilin 20 yanvarı təkcə faciə kimi deyil, milli azadlıq, müstəqillik hərəkatının bu faciəni törətmiş imperiyanı məğlub etdiyi tarix kimi yaşadılır. 30 il əvvəl törədilmiş faciənin ağrıacılarını, faciəni, qətliamı görənlər də yaşayır, o faciədən çox kiçik olanlar da, o gecənin qürurunu şahidlər də yaşadır, yaşı o qürurdan az olanlar da...

Gəncə şəhərindəki Mir Cəlal Paşayev adına 39 saylı orta məktəbdə "N" hərbi hissəsinin təşkilatçılığıyla 20 Yanvar faciəsinə həsr olunmuş anım tədbiri keçirildi. Tədbiri məktəbin direktoru Nizami Rzayev açaraq, 1990-cı ilin 20 Yanvar faciəsinin mahiyyətindən, baş verməsəbəblərindən danışdı.

Məktəbin tarix müəllimi Ramin Quliyev çıxış edərək dedi:

- Azərbaycandakı milli azadlıq hərəkatı rus imperiyasını qorxuya salmışdı. İmperiya 70 il əsarətdə saxladığı əyalətdə belə bir hərəkatın son həddə genişlənməsinin qarşısını almaq istəyirdi ki, imperialığını qoruyub saxlaya bilsin. Bunu bacarmadı. Həmin gecə imperiya xisləti, əsarətdə saxlama mexanizmi azərbaycançılığa məğlub oldu. Qanlı Yanvar gecəsi Bakıya yeridilən qoşun hissələrinin qarşısını xalqın mübarizə əzmi, qətiyyəti, min illik dövlətçilik tarixinə ehtiramı, sevgisi kəsdi. Törətdiyi faciə-qətliam rus imperiyasının azərbaycançılıq qarşısında gücsüzlüyünün etirafı idi...



20 Yanvar faciəsində şəhid olanlar bizim hər birimizin ömründə yaşayır. Torpaqlarımızın işğaldan azad edilməsi şəhidlərin uca ruhlarına gözaydınlığı olacaq. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq...

Məktəbin çağırışaqədərki hazırlıq müəllimi Səfər Hüseynov məktəblilərin vətənpərvərlik tərbiyəsində bu və ya digər tədbirin əhəmiyyətindən, keçirilən tədbirlərin mahiyyətləri arasında əlaqə yaradılmasının zərurətindən, bu baxımdan məktəblərin üzərinə düşən mənəvi borcdan söz açdı.

Məktəbin dil-ədəbiyyat müəllimi İlhamə Ələkbərova 20 Yanvar faciəsinin ədəbiyyatda, əsasən, poeziyada necə əks olunmasından, faciənin sözdə sözlə yaşadılmasından danışdı.

"N" hərbi hissəsinin zabiti mayor Fəxrəddin Əhmədov çıxışında gənc əsgərlərin vətənpərvərlik ruhunun yüksəldilməsi zərurətindən və yollarından danışdı:

- Çağırışçılar hərbi hissəyə müəyyən vətənsevərlik duyğularıyla gəlirlər. Bizim başlıca vəzifəmiz gənc əsgərlərin malik olduğu bu duyğuları daha da dərinləşdirmək, mahiyyət baxımından genişləndirməkdir. Bu istiqamətdə görülən tədbirlər sırasında tarixi günlərin, xalqımızın və dövlətçiliyimizin tarixi ilə bağlı olan hadisələrin xatırlanması əhəmiyyətli olur. Məhz bu baxımdan biz bunu həmişə diqqətdə saxlayırıq. Bu və ya digər məktəblə birlikdə keçirilən tədbirlər də əhəmiyyətli olur. Bu günün məktəblisi sabahın çağırışçısı, deməli, əsgəridir. Onlarda hərbi xidmətə, hərbçi peşəsinə maraq məhz bu tədbirlərlə formalaşdırılır.

20 Yanvar faciəsinin mahiyyətini dərk edən məktəbli çağırışçı Vətəni daha dərin duyğularla sevir...

Tədbirin sonunda şagirdlər 20 Yanvar faciəsinə, şəhidlərə həsr olunmuş şeirlər dedilər. Tədbirdə iştirak edənlər şeirləri bu şagirdlərin Vətən sevgisinin dönməzliyinə əminliklə dinlədilər. Bir daha əmin oldular ki, 1990-cı ilin 20 Yanvar gecəsi azərbaycançılığın qalibiyyət gecəsidir.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ordumuzun əşya təminatı yüksək səviyyədədir

Maddi-Texniki Təminat Baş İdarəsi
Arxa Cəbhə İdarəsinin Əşya Xidməti rəisi
polkovnik Azər QURBANOV



*Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl üzərində qurulmasından asılıdır. Ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusilə də, onun dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsidir. Bu gün dövlətimizin modernləşməsi, daha da güclənməsi və iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır.*

Ölkəmizin dinamik iqtisadi inkişafı nəticəsində bütün sahələrin, o cümlədən Silahlı Qüvvələrimizin gücləndirilməsi dövlət başçısının gərgin və səmərəli fəaliyyətinin nəticəsidir. Dövlətimizin iqtisadiyyatının inkişafı və maliyyə imkanlarının yüksəlməsi fonunda ordumuzun maddi-texniki bazası da möhkəmləndirilir. Ordumuzun bütün təminat növlərində aparılan ardıcıl tədbirlər dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir.

Ali Baş Komandanın ordumuz haqqında fikirlərini xatırlayıram: "Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır." Bu gün ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası müasir standartlara uyğun təchiz olunub.

Əşya təminatı Silahlı Qüvvələrin, digər qoşun növlərinin, hərbi birləşmələrin və hərbi hissələrin təminat növlərindən biri olmaqla, maddi-texniki təminat sistemində şəxsi heyətin geyim, ayaqqabı, yataq, hamam və digər avadanlıqlara olan ehtiyacını qarşılamaqdadır.

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra ordumuzun şəxsi heyətinin əşya təminatı keçmiş sovet dövründə olduğu kimi təşkil olunub. 1994-cü ildə qüvvədə olan normalara istinadən hazırlanan "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin şəxsi heyətinin əşya təminatı haqqında Əsasnamə" Nazirlər Kabinetinin 1993-cü il 30 dekabr tarixli Qərarı ilə Müdafiə nazirinin 1994-cü ildə imzaladığı müvafiq Əmri ilə təsdiq edilib.

Əşya təminatı orqanları qoşunların əşya və texniki vasitələrə olan tələbatını təyin etmək üçün kompleks tədbirlər həyata keçirir, bu əmlakların alınmasına, yoxlanılmasına, saxlanılmasına, aidiyyəti üzrə çatdırılmasına və təyinatı üzrə istifadəsinə cavabdehlik daşıyır.

Son illər orduda həyata keçirilən əsaslı islahatlar şəxsi heyətinin əşya təminatında da köklü dəyişikliklərlə müşahidə olunur. Əşya təminatının dünya standartlarına uyğunlaşdırılması məqsədilə 2016-cı ildə Müdafiə nazirinin təşəbbüsü ilə məsələyə yenidən baxılıb. Əşya təminatı normalarına əlavə dəyişikliklərin edilməsi ilə bağlı Nazirlər Kabinetinin 2016-cı il 24 may tarixli Qərarı əsasında Müdafiə nazirinin 2016-cı il 29 avqust tarixli Qərarı ilə "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin dinc dövrdə əşya təminatı haqqında Əsasnamə" qüvvəyə minib.

Hazırda Azərbaycan Ordusunun əşya təminatı Maddi-Texniki Təminat Baş İdarəsinin Arxa Cəbhə İdarəsinin tabeliyində olan Mərkəzi Əşya Bazası vasitəsilə həyata keçirilir. Hər cür şəraitlə təmin olunan bazada əşya əmlakı saxlamaq üçün bina və konstruksiyalardan ibarət saxlanclar mövcuddur. Burada nümunələr otağı yaradılıb və bütün növ qoşun geyim əmlakları ilə komplektləşdirilib. Ötən müddət ərzində burada yeni saxlanclar inşa edilib, bəzi saxlanclarda isə əsaslı təmir işləri görülüb, eyni zamanda, ərazidə olan dəmir yolu təmir olunaraq istifadəyə verilib.

Müəssisələr tərəfindən gətirilən əmlaklar, ilk növbədə, Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinin tabeliyində olan əşya əmlakının müayinə və keyfiyyətinə nəzarət laboratoriyasında yoxlanılır və yalnız müsbət cavab alındıqdan sonra müvafiq qaydada Mərkəzi Əşya Bazasının tabeliyində fəaliyyət göstərən əşya əmlakının qəbulu bölməsinin nəzarəti altında saxlanclara qəbul edilir. Əşya əmlakının müayinə və keyfiyyətinə nəzarət laboratoriyası Silahlı Qüvvələrin istifadəsində olan bütün növ əmlakı istənilən parametr üzrə analizdən keçirməyə imkan verir.

Müayinə və keyfiyyətə nəzarət laboratoriyası nümunələrin dartılma, sıxılma kimi fiziki təsirlərə, rezin materialların aşınmağa, nümunələrin hava keçirməsinin və partlama qüvvəsinin sürtünməyə qarşı davamlılığını və s. aparır. Laboratoriyalarımız, həmçinin, dərinin və parça materiallarının su keçirmə qabiliyyətini, ayaqqabının statik, dərinin dinamik şəraitdə su keçirməsinin sınağını aparmaq üçün və s. cihazlarla təchiz edilib.

Bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin təchiz olunduğu xovlu dəsmal dəstləri 3 elementdən - hamam, əl-üz və ayaq dəsmallarından ibarətdir. Yerli istehsal olan dəsmallar əvvəlki iplik dəsmallardan ciddi şəkildə fərqlənir. Corab təminatı qış mövsümündə ayda 4 cütə çatdırılıb. Əsgərlərimiz soyuq iqlimli rayonlarda qış botinkaları, xəzli yarımkürk, keçəli çəkmə, isti səhra şalvarı, istiləşdirilmiş qulaqlı şlemaltı papaq, qışlıq uzunboğaz botinka, içi xəz dərili əlcək ilə təmin olunurlar.

Orduda geyim məsələsində aktual olan məsələlərdən biri də bütün mövsümlərdə yerləşdiyi coğrafiyadan asılı olmayaraq, bütün şəxsi heyətin eyni tipli botinkalarda xidmət etməsi idi. Artıq bu məsələ bir neçə il əvvəl həllini tapıb. Şəxsi heyət mövsümə, əraziyə və temperatura görə həm fərqli geyim, həm də fərqli botinkalarla təchiz edilir. Yerli şirkət tərəfindən istehsal edilən botinkaların alt hissəsi üzlüyə əvvəlki kimi yapışqanla deyil, müasir vulkanizasiya üsulu ilə "bişirilir".

Əşya xidmətinin qarşısında duran ən vacib məsələlərdən biri də ön xətt və stasionar hərbi hissələrin şəxsi heyətini isti və inventar (yarımkürk, keçəli çəkmə, isti səhra şalvarı, istiləşdirilmiş qulaqlı şlemaltı, qışlıq uzunboğaz botinka, içi xəz dərili əlcək və s.) əmlaklarla təminatını təşkil etməkdən ibarətdir. Ordumuzda istər zabit, istərsə də əsgər heyəti eyni dəridən tikilən botinka, eyni parçadan tikilən geyimlə təchiz edilir. Bu siyahıda yalnız rütbələr və kokardlar, yeni, fərqləndirmə nişanları istisna təşkil edir ki, bu da təbiidir. Zabit və əsgərlərimizin sviterlərində fərq yalnız rəngindədir, bu da şəxsi heyətin kitelsiz olduğu müddətdə zabit heyətinin seçilməsi üçündür. Bütün bunlar dünyanın inkişaf etmiş ordularında da belədir.











Bütün istiqamətlər üzrə dəyişikliklər ən müasir standartlara uyğun formada davam etməkdədir. Şəxsi heyətin hamam-camaşırxana ilə təchizatı yeni qurulan və stasionar hərbi hissələrdə kökündən həll olunub. Ön xətt bölmələrinin hamam-camaşırxana xidmətinin səmərəli şəkildə təşkili üçün hərbi hissələrdə mobil və ya daşınan səhra hamamından, səhra camaşırxanasından və ya mülki müəssisələrin resurslarından istifadə edilir ki, bunlar, həmçinin səhra təlimlərinə çıxan şəxsi heyətin təminatında da istifadə edilir. Səhra şəraitində və ya təlimlər zamanı şəxsi heyətin yerləşdirilməsi üçün müxtəlif təyinatlı çadırlar, maskalanma vasitələri tədarük edilib.

Əşya təminatında sanitar-gigiyena qaydalarına ciddi surətdə əməl edilir. Bu məqsədlə dəyişək alt paltarları və yataq dəstlərinin yuyulması üçün müasir tələblərə uyğun yuyucu vasitələr müvafiq qaydada alınır və hərbi hissələr tərəfindən istifadə edilir.

Müdafiə nazirinin əmrinin tələblərinə uyğun olaraq xidmət müddətində şəxsi heyət bir dəfə mərkəzləşdirilmiş qaydada sanitar-gigiyenik ləvazimat və təsərrüfat əmlakı ilə təmin edilir.

Hal-hazırda bir əsgərin normaya uyğun təminatı müasir orduların təminatından fərqlənmir və ordumuzun əşya təminatı dünyada qəbul edilmiş ordu standartlarından geri qalmır. Azərbaycan Ordusunda şəxsi heyətin əşya təminatının yaxşılaşdırılması, əşya əmlakının və yuyucu maddələrin vaxtlı-vaxtında alınması, əşya təminatı normalarının ödənilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Yeni inşa edilmiş hərbi şəhərciklər və müasir tələblərə tam cavab verən hamam-camaşırxanalar, məişət otaqları və əsgər yataqxanaları şəxsi heyətin istifadəsinə verilib.

Ordumuzun əşya təminatı yerli şirkətlər tərəfindən həyata keçirilir.

Azərbaycan Ordusunun şəxsi heyətinin və hərbi hissələrə yeni çağırılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının mütəmadi olaraq mövsümə uyğun əşya təminatı normalarının tam şəkildə çatdırılması daim nəzarətdə saxlanılır.

Ordumuzda olan bütün əşya əmlakının sayı və vəziyyəti mütəmadi olaraq əşya xidmətinin vəzifəli şəxsləri tərəfindən yoxlanılmaqla yanaşı, hissə və birliklərdə mövcud olan əşya və təsərrüfat vasitələrinin saxlanılma və qorunma şəraitinə də ciddi nəzarət edilir.

Bütün bunlar deməyə əsas verir ki, qüdrətli Azərbaycan Ordusu ən şərəfli missiyanın - torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müqəddəs vəzifənin öhdəsindən gəlməyə hər an hazırdır.

# İdman və fiziki hazırlıq mütəxəssislərinin təlim-metodiki toplantısı keçirildi

*Müdafiə nazirinin 2020-ci tədris ili üçün təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusunda idman və fiziki hazırlıq mütəxəssislərinin hazırlıq səviyyəsinin yoxlanılması məqsədilə təlim-metodiki toplantı keçirildi.*



Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən keçirilən toplantı üç mərhələdən ibarət oldu. Birinci mərhələdə zabitlərin nəzəri biliklərinin təyin edilməsi məqsədilə rəhbər sənədlərin öyrənilməsi üzrə testlər keçirildi, ikinci mərhələdə onların fiziki hazırlığı və praktiki vərdişləri üzrə məqbullar qəbul edildi. Son mərhələdə isə 2019-cu ilin yekunu və keçirilmiş idman birinciliklərinin nəticələri təhlil edildi.

Polkovnik Sadiq Paşayev Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən 2020-ci ildə qarşıya qoyulan tapşırıqları şəxsi heyətə çatdırdı. Zabit bildirdi ki, döyüş hazırlığının tərkib hissəsi kimi, fiziki hazırlığın hərbi qulluqçularımızın sağlamlığının möhkəmləndirilməsində və fiziki göstəricilərinin inkişafında böyük rolu vardır. "Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizdə idmanın inkişafına, onun maddi-texniki bazasının genişləndirilməsinə, fiziki cəhətdən sağlam gənc nəslin formalaşması məsələsinə xüsusi diqqət ayırırdı. Bu siyasət Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə hərbi qulluqçuların hər an döyüşə hazır olması prioritet məsələlərdəndir. Bu səbəbdən şəxsi heyətin fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılaraq, günün nizam qaydasına uyğun həyata keçirilir. Hərbi hissələrdə müasir standartlara cavab verən idman şəhərcikləri mövcuddur və şəxsi heyətin fiziki hazırlıq məşğələlərinin səmərəli təşkili üçün hər cür şərait yaradılıb."



Polkovnik Sarı Xəlilov isə vurğuladı ki, Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırmaq, Dövlət himnini səsləndirmək, ordumuzun şanşöhrətini bütün dünyaya yaymaq hər birimiz üçün müqəddəs və şərəfli vəzifədir. "İnanırıq ki, tezliklə işğal altında olan torpaqlarımızı azad edəcəyik və əldə etdiyimiz nailiyyətlər bizi qələbəyə daha da yaxınlaşdıracaq".

Toplantıda tədbir iştirakçılarının diqqətinə çatdırıldı ki, Azərbaycan Ordusunda 2019-cu tədris ilində 10 idman növü üzrə keçirilən yarışlarda komandalar arasında birinci qrupda birinci yerdə Beyləqan komandası, ikinci yerdə Şəmkir komandası, üçüncü yerdə Bərdə komandası; ikinci qrupda isə birinci yerdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin komandası, ikinci yerdə Kəşfiyyat Baş İdarəsinin komandası, üçüncü yerdə Sülhməramlı Qüvvələr Briqadasının komandası qərarlaşdılar.

Sonda 2019-cu ilin yekunlarına görə qalib komandalar və bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hospitalda “Qanbağışlama” aksiyası

*"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşkilatçılığı ilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar "Qanbağışlama" aksiyası keçirildi.*



Aksiyada Müdafiə Nazirliyinin, "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin əməkdaşları və ictimaiyyət nümayəndələri könüllü olaraq iştirak etdilər.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəisi tibb xidməti polkovniki Tofiq Tağıyev aksiyanın əhəmiyyətindən danışaraq bildirdi ki, qan vermək həm ictimai, həm də fərdi baxımdan əhəmiyyət daşıyır. Aksiyada toplanılan qanın Vətənimizin müdafiəçilərinin həyatını xilas etməkdə müstəsna rolu olacağını deyən tibb xidməti polkovniki Tofiq Tağıyev hər kəsi bu cür xeyirxah əmələ dəvət etdi. 20 Yanvar faciəsindən söz açan polkovnik sovet imperiyasının xalqımıza qarşı törətdiyi vəhşiliyə ilk olaraq ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyindən, bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dinamik inkişaf yolunda olan Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasının vacibliyindən bəhs etdi. Zabit, həmçinin Vətənimizin müstəqilliyi, suverenliyi, azadlığı uğrunda canlarından keçənlərin əbədi olaraq Azərbaycan tarixinə və xalqımızın yaddaşına həkk olunduqlarını, onların xalqımızın qürur mənbəyinə çevrildiyini vurğuladı.

Qan vermənin faydalarından danışan Silahlı Qüvvələrin Baş Klinik Hospitalının qan bankı bölməsinin rəisi tibb xidməti mayoru Elvin Rüstəmov dedi ki, qan vermənin insanda qan hüceyrələrinin təzələnməsinə, qandakı yağın miqdarının azalmasında, baş ağrıları, stress, yüksək qan-damar təzyiqi kimi narahatlıqların azalmasında müstəsna rolu vardır. "Qan verməmişdən əvvəl məlumat kartlarına donorlar haqqında lazımi məlumatlar qeyd olunuraq, həkim müayinəsindən keçirilir. Bu zaman hemoqlobinləri, qan təzyiqləri, ürək ritmləri yoxlanılır. Əgər müayinə zamanı aşkar olunarsa ki, veriləcək qanın donora və ya xəstəyə zərəri var, qan ianəsi təxirə salınır. Temperaturu, ritm pozğunluğu olanlar, müalicə alanlar qan verə bilməzlər. Sağlam fərdlər qan verəndən sonra qan hüceyrələri sümük iliyinin çalışması ilə sürətlə yenilənir. Onsuz da bədən qan hüceyrələrinin yaradılması və dağıdılması fəaliyyətlərini davamlı olaraq həyata keçirir. Alınan qan isə sağlamlığa heç bir mənfi təsir edəcək səviyyədə deyil."

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov isə qeyd etdi ki, "Qanbağışlama" aksiyasının 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunması bir daha azadlığımızın nəyin bahasına əldə olunduğu xatırladır. "Bu gün hər bir Azərbaycan vətəndaşı ordumuzun şəxsi heyətinin yanındadır. Əgər bu gün ölkədə əmin-amanlıq hökm sürürsə, bu, onların sayəsindədir. Hər zaman həmrəy, yumruq kimi bir olmalıyıq ki, heç bir qüvvə bizə qalib gələ bilməsin. Belə xeyirxah addımlar bütün dünyaya xalq-ordu birliyini nümayiş etdirməklə yanaşı, Vətənimizin keşiyində dayananların döyüş əzmini daha da artırır. Böyük Qələbəyə gedən yolumuzun sonuna az qalıb. İnanırıq ki, tezliklə Azərbaycan əsgəri işğalda olan torpaqlarımızı azad edəcək, bizlərə qələbə sevincini yaşadacaq. Ehtiyac olarsa səngərdə onlarla çiyin-çiyinə savaşmağa hazırıq!"

Həkim-mütəxəssis, ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Kazım Quliyev, gizir Emin İsmayılov, tibb bacıları - baş çavuş Samirə Məsimli, Kəmalə Sədrəddinova, Yeganə Ramazanova, Nigar Feyziyeva və digərləri aksiyada üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldilər.

Xeyriyyə məqsədilə keçirilən aksiyada iştirak edən donorlardan Fikrət Əliyev, Ceyhun Manafov, Samir Salmanov, Elnur Ağayev və başqaları hərbçilərimiz üçün könüllü qan verməni özlərinə mənəvi borc bildiklərini, belə aksiyalarda yaxından iştirak etməklə hər an Vətənin keşiyində dayanan oğullarımızın yanında olduqlarını dedilər.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə beş terrorçu təhlükəsizlik qüvvələrinə təslim olub



Türkiyənin Şırnak vilayətindəki Habur sərhəd-keçid məntəqəsində beş terrorçu təhlükəsizlik qüvvələrinə təslim olub.

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, ölkədə terrorizmə qarşı aparılan uğurlu əməliyyatlar, ailələrin dəstəyi və danışıqların nəticəsi olaraq son illər Türkiyədə təslim olan terrorçuların sayı getdikcə artmaqda davam edir. Bu ilin əvvəlindən etibarən danışıqlar yolu ilə təslim olan terrorçu sayı 13 nəfərə çatıb.

## Yəməndə hərbi düşərgənin atəşə tutulması nəticəsində ölən əsgərlərin sayı 70-ə çatıb



Yəmənin Mərib şəhərində yerləşən hərbi təlim düşərgəsinin raket atəşinə tutulması nəticəsində ölən əsgərlərin sayı 70-ə çatıb.

Həlak olanlar arasında ölkə Prezidentin mühafizə xidmətinin əsgərləri ilə yanaşı, hərbi hava qüvvələrinin kursantları da var.

Məlumata görə, düşərgəni qiyamçı husilərin "Ənsar Allah" təşkilatı atəşə tutub.

## “Teodor Ruzvelt” Sakit okean bölgəsinə göndərilib



ABŞ ordusuna məxsus "Teodor Ruzvelt" aviadaşıyıcısı (CVN-71) 6 hərbi gəmi ilə birlikdə Hind-Sakit Okean Komandanlığı bölgəsinə yollanıb.

Bu barədə ABŞ Hərbi Hava Qüvvələri məlumat yayıb.

Qeyd olunur ki, göyərtəsində müxtəlif döyüş təyyarələri olan aviadaşıyıcı regionda dəniz təhlükəsizliyini, regional tərəfdaş və müttəfiqlərlə birgə regional sabitliyi təmin etmək üçün bölgəyə göndərilib.

## NATO ilk hava-yer müşahidə dronunu təqdim edib



NATO-nun İtaliya şirkətinə sifariş etdiyi 5 hava-yer müşahidə dronunun ikisi artıq hazırdır.

Pilotsuz uçan aparatların təqdimat mərasimində NATO-nun baş katibi Yens Stoltenberq də iştirak edib.

Mərasimdə çıxış edən baş katib bildirib ki, "RQ-4 Global Hawk" dronlarının bir variantı olan bu pilotsuz uçan aparatlar Afrikanın Sahel bölgəsində və Yaxın Şərqdə əməliyyatlara cəlb olunmaqla bərabər, həm də Avropa üçün nəzərdə tutulub.

## Özbəkistan “Mi-35M” helikopterlərini silahlanmaya daxil edib



Özbəkistan 2018-ci ilin əvvəllərində Rusiyadan sifariş edilən iki ədəd "Mi-35M" hücum helikopterini silahlanmaya daxil edib.

Helikopterlər Karşi Xanabad aviabazasına yerləşdirilib.

Qeyd edək ki, Özbəkistan 2018-ci ildə Rusiyadan 12 ədəd "Mi-35M" helikopteri alıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Səməd Vurğun*

## Qəhrəmanın ölümü

Bütün Bakı fikirdədir, göy sükutda, dəniz lal...,
Nə meh əsir, nə titrəyir ağacların yarpağı.
Hər ürəkdə bir döyüntü, hər baxışda bir sual...
Bu gün çatmış qaşlarını Azərbaycan torpağı.

Vətən oğlu! - Bu iki söz dodaqlarda yandıqca,
Hər ürəyin telləri də qəmli-qəmli saz tutur.
Vətən mülkü öz oğlunu ana kimi andıqca,
Ağır dağlar fikrə gedib, öz qəlbində yas tutur.

Cəbhədəsə, bizdən uzaq, Həzi! - deyən hər əsgər
O tabutun qarşısında diz çökərək and içir.
Tanklar uçur, ordu keçir, daralmışdır üfüqlər,
İntiqamın yanan qəlbi şaxta udur, qar içir.

İllər keçir... Yaşa dolur süd ağızlı körpələr,
Nəsil-nəsil ürəklərdə yuva salır qəhrəman.
Şəfəq saçır türbəsinə min səadət, min səhər,
Bu əməllə, bu eşq ilə o keçdi öz canından.

Rəssam alıb fırçasını xəyallara qərq olur,
Bahar kimi şəfəqlənir qəhrəmanın surəti.
Könüllərdə söhbət olub neçə məclis qurulur,
Alqış deyir mərd oğula şerin, sözün qüdrəti.

Qərinələr arxasından Cavanşir də, Babək də
Qılınc ilə salam verir bu müqəddəs türbəyə.
Göydə günəş şölə saçır, nəğmə tutur külək də,
Yerdə insan nəfəs alır: qəhrəmana eşq! - deyə.

*Məmməd Araz*

## Həzi burda doğulub

Dedim bu nə axındır
Kiçik bir evə sarı,
Ağ saçlı bir qadının
Titrədi dodaqları:
- Həzi burda doğulub.

Onu andım, göy dəniz
Elə dalğalandı ki...
Keçən bulud karvanı
Göylərdə dayandı ki;
Həzi burda doğulub!

Onun adı dilimdə
Bağa girdim - gül açdı.
Qoca palıd baş əydi,
Dilsiz çinar dil açdı:
- Həzi burda doğulub!

Gözlərdə sevinc duydum,
Dedilər ki, bu odur.
Sahildə yanan şamlar
Ürəyinin odudur;
Həzi burda doğulub!

Sanki Qafqaz küləyi
Dolandı Avropada.
Dünyanın ürəyindən
Gəldi bir səs, bir səda:
- Həzi burda doğulub!

*Fikrət Qoca*

## İki general

Bu gün iki general durub üz-üzə
Bu günkü sevincin dili də laldır.
Ehtiyac da yoxdur söhbətə, sözə,
Ata öz oğlundan cavan generaldır.

Hərbin yaraları yaşayır hələ,
Adam keçən gündən bac ala bilmir.
Ata cavan ikən dönüb heykələ,
Nə qədər yaşayır qocala bilmir.

Yüz illər keçəcək başının üstdən,
Onun saçlarına düşməyəcək dən.
Onun torpağının, daşının üstdən
Bir də keçə bilməz heç zaman düşmən.

Döyüşə hazırdır, hər zaman Həzi,
Ölməz bir generaldır qəhrəman Həzi.
Oğlu da əsgərdir, öz döyüşü var,
Onun da işi var, ağır işi var.

Vaxtdan bir ömür də borc almalıdır
Ata yerində də qocalmalıdır.

*Könlüm şeir istəyir*

# Qəhrəman şeirimizin də qəhrəmanıdı



*Şeir həm duyğuların nizamıdı, həm də düşüncələrin. Böyük Vətən müharibəsində qazanılan qələbədən 75 il keçir, döyüşlərin qəhrəmanları heç zaman unudulmayıb, unudulmur, unudulmayacaq. O qələbədə müttəfiq respublika kimi Azərbaycanın tarixi rolu, azərbaycanlıların qəhrəmanlığı müxtəlif səviyyələrdə etiraf olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun sərkərdəlik qüdrəti haqqında da işıqlı, həsəddoğurucu fikirlər deyilib...*

*Həzi Aslanov qəhrəmanlığı Azərbaycan poeziyasında da yaşadılır.*

**"Azərbaycan Ordusu"**

*İslam Səfərli*

## Təzə çiçəklər

Seyranım olduqca dağüstü parkı,
Fikrimi cəlb edir dilsiz bir məzar.
Deyirəm: ey doğma Vətən torpağı,
Sinəndə nə qədər oğul dərdi var...

Küləklər üstünə yarpaq sovurur,
Bəzən duman enir bu tək məzara.
Bəzən qızmar günəş onu qovurur,
Bəzən də bu türbə qərq olur qara...

Nəmli köynəyini sıxır buludlar,
Keçir yaz günləri, payız xəzanı.
Soruşur təbiət, soruşur bahar:
- Ellər bahadırı mərd Həzi hanı?

Hanı adı dildə, qüdrəti eldə,
Şöhrəti aləmdə dolaşan Həzi?
Bu səsə qoşulub qanadlı yel də
Dolaşır Qoşqarı, gəzir Kəpəzi...

... Keçir gözlərimdən döyüş meydanı,
Ölüm qılınc çəkib, həyat dardadır.
O tank alayının baş komandanı
Yenə də birinci sıralardadır.

Baş-başa gəldikdə zirehli tanklar,
Ulduzlar titrəşir mərmi səsindən.
Həzi qabaqdadır, qabaqda dostlar!
O tank hücumunu seyr edirəm mən.

Bir-bir azad olur kəndlər, şəhərlər,
Qalxır barıt iyi, səngiyir ara.
Sinəyə dağ çəkən ağır bir xəbər
Yayılır bir anda bizim dağlara:

- Həzi öz canını...
Yox, yox yalandır!
O, yenə şığıyır düşmən üstünə.
Ölümü öldürən bir qəhrəmandır,
Eşqi ürəklərdə yaşayır yenə.

Ölməmiş, yaşayır o, əslində də,
Ona mahnı deyir sərin küləklər.
İlin yaz fəslində, qış fəslində də,
Üstündə sayrışır təzə çiçəklər...

*Qüdrət Cəfərov*

## Həziyə

Bir igiddin, qılınc qına qoymadın,
Vaxtsız getdin, bu həyatdan doymadın.
Bir insandın, cəsur, igid, mehriban,
Qəhrəmandın, əfsanəvi qəhrəman!
Bu torpaqdan güc almışdı ürəyin,
Nər oğluydun Koroğlunun, Babəkin!
Sənin adın hər bir kəsə tanışdır,
Bu gün hamı şöhrətindən danışır.
Heykəlinin önündəyəm mən, Həzi,
Niyə susub danışmırsan sən, Həzi?!

*Məmməd Təhməzov*

## General Həzi

Getdi Babək kimi, Koroğlu kimi,
Getdi döyüşlərə general Həzi.
Azəri yurdunun od oğlu kimi,
Qorudu düşməndən ellərimizi.

"Öldü var, döndü yox" dedi qəhrəman,
Volqadan başlandı zəfər yürüşü.
Nə mənsəb düşündü, nə şöhrət, nə şan,
Vətən eşqi ilə qabardı döşü.

Uçdu körpələrin şən gülüşləri,
Qondu göyərçintək, onun yoluna.
Uçdu anaların ürək sözləri,
"Vur oğlum, qurbanam igid qoluna".

"Vur" dedi qocalar, qızlar, gəlinlər,
Qoy ölsün yağılar, yaşasın Vətən,
"Vur" dedi milyonlar, "vur" dedi minlər,
"Vur" deyib igidlər coşdu qəzəbdən.

Çatıldı Həzinin qartal qaşları,
Qara gözlərində güldü qələbə.
Saldı ayaqlara quduz başları
Onun hər nəfəsdə vurduğu zərbə.

İrəli, irəli! Yalnız irəli!!
Hitlerin yuvası dağılsın gərək.
Yansın qələbənin qızıl məşəli,
Faşistin gözünə dağ olsun gərək.

Bir gözü yadları uzağa qovdu,
Bir gözü arxada - elində qaldı.
Söndükcə davanın alovu, odu,
Yaralı torpağın başı ucaldı.

Heyhat... nə ağırmış ölüm xəbəri,
Ey qələm, sən də min ağlayırsan.
Gülüb açılanda o qış səhəri,
Yumdumu gözünü o böyük insan?..

O yumdu gözünü... fəqət açıldı,
Milyon ürəklərin gözlədiyi yaz.
Vətən göylərinə fişəng saçıldı,
Ötdü sinələrdə min sədəfli saz.

Gülləri güllədən qoruyan Həzi,
Güllərin qoynunda yatıbdır indi.
Yaşa, ey anamız, Odlar ölkəsi,
Həzi də sənindir, gül də sənindir.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində baş verən cinayətlərin ardı-arası kəsilmir. Bu yaxınlarda işğalçı ordunun bölmələrindən birində "dedovşina" zəminində daha bir cinayət hadisəsi üzə çıxıb.

Hadisə ilə bağlı araşdırma aparan müstəntiq Ardak Voskanyan Eçmiədzindən hərbi xidmətə çağırılan Artuş Armeni adlı əsgəri mütəmadi olaraq döydüklərinə, fiziki və mənəvi təhqirlərə məruz qoyduqlarına görə 3 hərbi qulluqçunun cinayət məsuliyyətinə cəlb edilməsi barədə hərbi hissəyə məktub göndərib.

Hərbi hissə komandirinin əmrinə əsasən, erməni hərbçiləri Vahram Arakelyan, Vazgen Budoyan və Samvel Arustamyan müstəntiqin sərəncamına göndəriliblər.

Faktla bağlı istintaq davam edir və bu işdə başqa hərbi qulluqçuların da iştirakı araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində özbaşınalıq, qanunsuzluq, fiziki və mənəvi təhqirlər səbəbindən baş verən cinayətlərin ardarası kəsilmir. Bu günlərdə düşmən ordusunun bölmələrindən birində baş verən insident zamanı daha bir əsgər ağır bədən xəsarətləri alıb.

İşğal altında olan Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun hərbi hissəsində qanlı insident baş verib. Dava zamanı bir neçə əsgərin müxtəlif bədən xəsarətləri aldığı məlum olub. Ağır bədən xəsarətləri alan hərbi qulluqçu Andreas Hambaryan qan içində hərbi tibb müəssisəsinə çatdırılıb.

Hadisə ictimaiyyətdən gizlədilsə də, istintaq qrupu təcili olaraq hadisə yerinə ezam edilib. Hərbi qulluqçu A.Hambaryanın valideynləri istintaqın ədalətli aparılmasını və övladlarını bu hala salanların cəzalandırılmasını tələb edirlər.

Faktla bağlı istintaq davam edir və davada iştirak edən digər hərbi qulluqçuların da müəyyən edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Tibb xidməti baş leytenantı Qədirli Telman Teymur oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 6
Nüsxə 3900